**13 saylı Xəzər birinci və 14 saylı Xəzər ikinci seçki dairələrinin adlarında və ərazilərinin tərkibində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

# Q Ə R A R I

“Bakı şəhər inzibati ərazi vahidi tərkibində Pirallahı rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanununa uyğun olaraq Bakı şəhəri Xəzər rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilərək Bakı şəhəri Pirallahı rayonu yaradılmış, Pirallahı, Çilov və Neft Daşları qəsəbə inzibati ərazi dairələri Bakı şəhəri Xəzər rayonunun tabeliyindən çıxarılaraq Bakı şəhəri Pirallahı rayonunun tabeliyinə verilmişdir.

Bununla əlaqədar olaraq, 13 saylı Xəzər birinci və 14 saylı Xəzər ikinci seçki dairələrinin adlarında və ərazilərinin tərkibində bəzi dəyişikliklər edilməsi zərurəti yaranmışdır.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **q ə r a r a  a l ı r :**

1. 13 saylı Xəzər birinci seçki dairəsi müvafiq olaraq 13 saylı Xəzər – Pirallahı seçki dairəsi, 14 saylı Xəzər ikinci seçki dairəsi isə 14 saylı Xəzər seçki dairəsi adlandırılsın.

2. “Bakı şəhər inzibati ərazi vahidi tərkibində Pirallahı rayonunun yaradılması haqqında” Azərbaycan Respublikasının 21 dekabr 2012-ci il tarixli Qanununa uyğun olaraq 13 saylı Xəzər – Pirallahı və 14 saylı Xəzər seçki dairələrinin ərazilərinin tərkibində müvafiq dəyişikliklər edilsin.

3. Qərarın icrası öz səlahiyyətləri daxilində Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinə, 13 saylı Xəzər – Pirallahı və 14 saylı Xəzər seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilsin.

4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |